(Əvvəli 6-cı səhifədə).

1967-ci ildə keçirilən Ümumittifaq Özfəaliyyət İncəsənəti Festivalında xalq teatrı laureat adını almış, gümüş medalla təltif edilmişdir. Aktyorlardan Tamella Cəfərova, Sirac Gəncimov, Kamal Osmanov, rejissor Şirin Abdullayev, rəssam Kərim vanın, Malik Alcanovun, Sadəddin Abdullayevin və digərlərinin adları teatrın yaradıcılıq salnaməsinə əbədi həkk olunmuşdur. Teatrın repertuarının ana xəttini və mündərəcəsini dünya klassiklərinin görkəmli nümayəndələri ilə yanaşı Azərbaycan dramaturgiyasının məşhur simaları olan Cəfər Cabbarlıyasında keçən il "Tülkünün kələyi", "Qış nağılı" tamaşaları hazırlanaraq balaca tamaşaçılara nümayiş etdirilmişdir.

Sevindirici haldır ki, teatrın yaradıcı heyətinin sıraları günü-gündən artır. Hazırda truppada Xəyal Gəncimov, Elşən Salehov, Afət Əliyeva, Şahanə Vəlizadə, Firuzə Qa-

# Teatr işıqlı amalların carçısıdır

Səlimov ümumittifaq və respublika festivallarının qızıl medallarını almış və birinci dərəcəli diplomla təltif edilmişlər.

40-a yaxın həvəskar aktyorların çalışdığı teatrda Azərbaycan və xarici ölkə dramaturqlarının əsərləri uğurla tamaşaya qoyulmuşdur. Teatrın repertuarında Cəfər Cabbarlının yaradıcılığı mühüm yer tutmuşdur. Ədibin əksər əsərləri, o cümlədən "Solğun çiçəklər", "Aydın", "Oqtay Eloğlu", "Yaşar", "Sevil" pyesləri teatrda səhnə təcəssümünü tapmış, uzun müddət repertuardan düşməmişdir. Tamaşalarda dekorasiya, işıq, əlbisə, qrim, butaforiya və dekorasiya işlərinin həllinə respublikanın yaradıcı təşkilatları yaxından köməklik göstərmişdir. İllər bir-birini əvəz etdikcə, teatrın həvəskar kollektivləri təhsil almış peşəkar aktyor nəsli ilə zənginləşmişdir. Onlardan Eldəniz Manafovun, Təmi Hacıyevin, Tamella Cəfərovanın, Alimə Rəhimovanın, Almas Məsimovanın, Mədinə Şöyübonın, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Sabit Rəhmanın, Səid Rüstəmovun, Salam Qədirzadənin, Süleyman Ələsgərovun, Altay Məmmədovun səhnə əsərləri, Qeybulla Rəsulovun, Mirzəağa Atəşin, Kamal Nemətin və digər müəlliflərin birpərdəli pyesləri təşkil etmişdir.

Hazırda Qəbələ Mədəniyyət Mərkəzində fəaliyyət göstərən xalq teatrı İsmayıl bəy Qutqaşınlının adını daşıyır. Son illər teatrda Mirzə Fətəli Axundzadənin "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur" komediyasına, İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsinə, Süleyman Rüstəmin "Çimnaz xanım yuxudadır" əsərinə və Kamal Nemətin "Təzə xadimə" birpərdəli pyesinə quruluş verilmişdir. Uğurlu səhnə həlli tapan tamaşalar teatrsevərlər tərəfindən böyük rəğbət hissi və maraqla qarşılanmışdır.

Teatrın nəzdində yaradılan "Şəms" uşaq teatrı studiyıblı, Aytən Rəhimova, Səbinə Sabirli ilə yanaşı, digər gənc aktyorlar da quruluş verilən tamaşalarda böyük uğurla çıxış edirlər.

Xalq teatrına quruluşçu rejissor kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu Müsavər Qasımov rəhbərlik edir. Tamaşalara isə peşəkar rəssam Malik Ağayev bədii tərtibat verir. Tamaşa üçün seçilmiş pyeslərin peşəkar səviyyədə səhnə təcəssümü tapması üçün kollektivin hər bir üzvü həvəslə çalışır, repertuarın zənginləşdirilməsi və yeni nailiyyətlərin əldə olunması ilə bağlı görülən yaradıcılıq işləri uğurla davam etdirilir.

Öz inkişafının yeni mərhələsinə qədəm qoyan çağdaş Azərbaycan teatrı mədəniyyət taiximizin parlaq səhifələrini şərəflə yazir və teatrsevərlər hər il mart ayının 10-nu Azərbaycan milli teatrının əsası qoyulan gün- Milli teatr günü kimi qeyd edirlər.

**Anar Rüstəmli,**
**teatrşünas.**

# 5 mart—Bədən Tərbiyəsi və İdman Gününə həsr edilmiş görüş

11 ildir ki, Azərbaycanda 5 Mart—Bədən Tərbiyəsi və İdman Günü təntənə ilə qeyd olunmaqdadır. Qəbələ Rayon Gənclər və İdman İdarəsi müvafiq tədbirlər planına əsasən 4 mart 2016-cı il tarixdə Heydər Əliyev Mərkəzində bədən tərbiyəsi və idman ictimaiyyəti nümayəndələri ilə görüş keçirmişdir. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin büstü önünə tər qərənfillər qoymuşlar. Daha sonra ekspozisiya zalına baxış keçirilmiş və tədbir davam etdirilmişdir. Tədbirdə rayonun bütün idman sahələrində fəaliyyət göstərən idmançılar və məşqçi-müəllimlər iştirak etmişlər.

Rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək tədbir iştirakçılarını salamlamış və onlara bu günün yaranma tarixi barədə məlumat vermişdir.

Daha sonra uşaq gənclər idman məktəbinin direktoru Ədalət Əliyev, Qəbələ Uşaq Futbol Akademiyasının meneceri Muraz Yusibov, Olimpiya İdman Kompleksinin direktoru Valeh Əzimov, cüdo üzrə məşqçi müəllim Rail İsmayılov çıxış edərək rayonda idmana və idmançılara göstərilən dövlət qayğısından danışmış və bu bayram münasibətilə təbriklərini bildirmişlər.

Tədbirin sonunda dövlət idman siyasətinin uğurla həyata keçirilməsində səmərəli fəaliyyətinə görə bir qrup idmançı və məşqçilərə rayon gənclər və idman idarəsinin fəxri fərmanları və xatirə hədiyyələri təqdim edilmişdir.

**Elçin Osmanov,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Məktəblinin rəsm sərgisi

Daşca kənd tam orta məktəbində məktəblilərin hərtərəfli inkişafı üçün mütəmadi sinifdənkənar tədbirlər keçirilir. Tədbirlərin mövzu dairəsi Vətənə məhəbbət, təbiətə sevgi, onu qorumaq kimi sahələri əhatə edir.

Belə tədbirlər hər bir şagirdin dünyagörüşünün artması, özünü dərk etməsi üçün böyük təsirə malikdir. Məhz bu tədbirlərin nəticəsi həm də hər bir şagirdin istedadını üzə çıxarır.

Belə tədbirlərdən biri də bu günlərdə məktəbimizdə X sinif şagirdi Qönçə Ağakərimlinin ilk rəsm sərgisinin təşkili oldu. Məktəb pedaqoji kollektivi və şagirdlər məktəbli rəssamın rəsm işləri ilə yaxından tanış olublar. Sərgi ilə tanış olanların hamısı Q. Abdulkərimliyə gələcək işlərində uğurlar arzulayırlar.

Məktəbdə sərgi davam edir.

**Afət İSMAYILZADƏ,**
**məktəbin X sinif şagirdi.**

# Baharın müjdəçisi—Novruz

Əsrlərdir Azərbaycan xalqı Novruz bayramını qeyd edir və xalqımızın tarixində, adətənənəsində Novruzun özünəməxsus yeri və rolu vardır. Amma etiraf olunmalıdır ki, Novruz bayramının tarixi hələ tam araşdırılmayıb. Bəzən Novruz bayramını ayrı-ayrı dinlərlə, xüsusilə də İslam dini ilə bağlamağa cəhd edirlər. Geniş şəkildə yayılmasa da bəzi fərziyyələrə görə Novruz bayramı guya IV xəlifə Həzrət Əlinin hakimiyyətə gəldiyi günlə bağlıdır. Novruzun tarixinə müxtəlif yanaşmalar olsa da bu sahənin tədqiqatçılarının əksəriyyəti Novruzun dinlərlə, o cümlədən də islamla heç bir əlaqəsinin olmadığı qənaətindədirlər. Novruzun İslamdan əvvəl mövcud olduğu Firdövsinin, Nizami Gəncəvinin, Sədinin, Nizamülmülkün, Hafizin, Xəyyamın və başqalarının əsərlərində də yer alıb. Ancaq onu da qeyd edək ki, Novruzla bağlı çoxsaylı mənbələrin olmasına baxmayaraq, hələ də bu bayramın mənşəyi barədə yekdil fikir söyləmək mümkün olmayıb. Tədqiqatçıların əksəriyyəti Novruzun yaranma tarixini zərdüştlüklə əlaqələndirsələrdə bunu qəbul etməyən çoxsaylı nəzəriyyələr də mövcuddur. Lakin Novruzun yaranma tarixi, mənşəyi barədə fərqli fikirlər olsa da, bu bayramın baharın, yazın gəlişi ilə bağlı olduğunu demək olar ki, mütləq əksəriyyət təsdiq edir. Ümumi fikir belədir ki, Novruzu konkret bir dinlə, etiqadla bağlamaq düzgün deyil. Novruz bayramı, birlik, qardaşlıq bayramı, xalq şənliyidir. Qədim zamanlardan başlayaraq Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və bir çox Şərq ölkələrində Novruzu baharın gəlişi kimi qarşılayırlar. Hətta, martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır. 2009-cu il sentyabrın 30-da Novruz UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilib. Azərbaycan xalqı da Novruzu məhz Bahar bayramı kimi qeyd edir və yazın gəlişi ilə bağlayır. Novruz bayramına qədər, yəni gecə və gündüzün bərabərləşdiyi tarixdən əvvələ düşən sonuncu 4 çərşənbə günü də bayram olaraq qeyd olunur. İlaxır çərşənbələr yəni ilin sonuncu çərşənbələri olaraq qeyd olunan bu bayramlar da birbaşa baharın, yazın gəlişi ilə bağlıdır. Həmin günlərə su, od, yel, torpaq çərşənbələri deyilir. Novruzun ən böyük atributlarından biri hesab olunan səməni də heç şübhəsiz ki, yazın gəlişini simvolizə edir. Təkcə bu məqam onu deməyə əsas verir ki, Novruzu tək bir xalqın, tək bir etnosun milli bayramı kimi tanıtmaq doğru deyildir.

Novruz bayramının mənşəyi barədə fərqli nəzəriyyələr mövcud olsa da, bu bayramın yazın gəlişi ilə əlaqədar keçirildiyi heç kimdə şübhə doğurmur. Bu baxımdan ümummilli lider Heydər Əliyevin Novruzla bağlı illər öncə səsləndirdiyi fikirlər maraqlıdır. Novruz bayramının qədim tarixinin olduğunu bildirən Heydər Əliyev deyib ki, bizim tarixçilərimiz bunu indiyə qədər araşdırırlar. «Amma nə qədər araşdırsalar da o qədər dərin kökləri olduğunu aşkar edirlər.

Məlumdur ki, Novruz bayramı bütün bayramlardan ona görə seçilir ki, bu təbiətdən, elmi əsaslardan meydana gəlmiş bayramdır. Biz gecənin-gündüzün bərabərləşdiyini müşahidə edirik. Yəni bu bayramın yenə də deyirəm, bəlkə də, dünyada olan bütün xalqların bayramlarından fərqi odur ki, bu təbiətlə, kainatla əlaqədardır».

**Aslan Cəlilov.**